

## Allahşükür AĞA

### AĞ ÇİÇƏKLƏR

Sahil durub gördü ki,
Ağaclar ağappaqdı.
İnanmadı gözünə,
Dayanıb baxdı, baxdı.

Oyatdı uşaqları,
Quşlar qaçdı səsindən:
“Bağçalara, bağlara
Qış gəlibdi təzədən”.

Sahilin hay-küyünə
Gəldi qardaş-bacılar.
Gördülər ki, qar deyil,
Çiçəkləyib ağaclar.

### ANLAR

Mən çiçəkdən qorxuram,
Üstündə arı olur.
Çiçəklər ağ olsa da,
Arılar sarı olur.

Çiçəkləri görəndə
Arılar acır yaman.
Çiçəyi ləçəyindən
Arılar sancır yaman.

Anası dedi, qızım,
Unut bu dərdi-səri.
Mən səni istəyirəm,
Arılar çiçəkləri.

### ÇEÇƏLƏ BARMAQ

Arzu lap çox istəyir
Çeçələ barmağını.
Gecələr üstə salır
Balaca yorğanını.

Deyir, hələ körpədi,
Sinəsində gəzdirir
Alıb süd şüşəsini,
Ona süd əmizdirir.

Qoy barmağım böyüsün,
Olmasın qanı qara.
Tez bir zamanda çatsın
O biri barmaqlara.

**SAHİLİN ARZUSU**

Sahilin ağlamağı
Yenə tutub səhərdən.
O, quşları çağırır,
Quşlar uçurlar gendən.

Ağacdakı almaya
"Düş, yanıma gəl" deyir.
Alma gəlmir yanına,
Sahil də kiriməyir.

O, buludu çağırır,
Bulud dönür yağışa.
Suya dönən buludu
Sahil heç düşmür başa.

**ÇAY DÜŞÜB**

Çox qəribə uşaqdı
Bizim dəcəl Mirbəşir.
Harda sarı görürsə,
Deyir, göydən ay düşüb.

Axşam yağış yağanda
Yaman təşvişə düşüb.
Həyətdə sel axırmış,
Deyir, göydən çay düşüb.

**SU**

Suyla dolu vedrəni
Sahil yenə aşırdı.
Su da üzü dərəyə
Baş götürüb qaçırdı.
Sahil düşdü dalınca
Çatammadı heç suya.
Dərədən çay axırdı,
Gedib qarışdı çaya.
Sahil çaya çatanda,
Su çoxdan çatmış idi.
Küsdüm, siz tərəflərə
Bir də gəlmərəm, – dedi.

**ÖLMÜŞ AYI**

Dağıdır ev-eşiyi,
Sahil sakit dayanmır.
Guya oyuncaq ayı
Yuxusundan oyanmır.

Döyür hey təpəsinə,
Çiçək deyir: dayan sən,
Ayını döyə-döyə
Sən çoxdan öldürübsən.

**ÇİÇƏKLİ DON**

Çiçəyin ağ donunda
Neçə çiçək şəkli var.
Ona görə üstünə
Gəlib qonur arılar.

Arıdan qorxur yaman,
Rəngi-ruhu sozalıb.
Deyir, arı qonandan
Donda çiçək azalıb.

**DƏLİ KÜLƏK**

Yatmır balaca Çiçək,
Deyir, nə deyir külək,
Qapımızı döyərək,
Külək kimi istəyir?

Anası deyir ona,
Yatmayan uşaqları
İstəyir dəli külək.
Bağçaları, bağları
Titrədir dəli külək.

– Anacan, qov küləyi,
Gedib uzaqda qalsın.
– Sən yat ki, mənim balam,
Gedib külək də yatsın.

